*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 iyul 2018-ci il № 54 (2270) Qiymətı 25 qəpik


## Sən Azərbaycan əsgərisən!

Xalqımızın mübariz övladları!
Ordumuzun qəhrəman döyüşçüləri!
Vətənimizin keşiyində mərdliklə, ayıq-sayıq dayanan, respublikamızın ərazi bütövlüyünü təmin etmək üçün Silahlı Qüvvələrin Ali Baş Komandanının hər bir əmrinə hazır olan igidlərimiz!



Siz bu gün çətin, məsuliyyətli, ancaq şərəfli, müqəddəs bir vəzifəni yerinə yetirirsiniz. Torpaqlarımızın müdafiəsi, xalqımızın əmin-amanlığının, xoşbəxt, firavan yaşamasının təminatı sizə həvalə edilib. Siz Vətənə, xalqa, dövlətə sədaqət andı içərək Azərbaycan uğrunda canınızdan, qanınızdan keçməyə hər an hazırsınız. Milli hiss, milli düşüncə, tarixi dövlətçilik ənənələrinə sədaqət, torpağa bağlılıq sizin amalınızdır. Xalqımız sizə güvənir, sizə arxalanır, sizin hər bir uğurunuzdan böyük qürur duyur.

2016-cı ilin aprelində Füzuli, Cəbrayıl, Ağdərə, Tərtər istiqamətlərində və bu yaxınlarda Naxçıvan Muxtar Respublikasında düşmənə vurduğunuz sarsıdıcı zərbə, qazandığınız zəfərlər, xalqımıza bəxş etdiyiniz qələbə sevinci hər bir Azərbaycan vətəndaşının, hər bir azərbaycanlının işğal altında olan əzəli torpaqlarımızın da tezliklə azad olunacağına inamını daha da artırır. Eşq olsun sizlərə, şəhid Mübarizlərimizin, Çingizlərimizin, Muradlarımızın, Samidlərimizin, Adillərimizin ... davamçıları!

Azərbaycan Silahli Qüvvələrinin 100 illiyi münasibətilə paytaxtımız Bakıda, Azadlıq meydanında keçirilən möhtəşəm hərbi paradda siz öz gücünüzü, qüdrətinizi, nəyə qadir olduğunuzu həm xalqımıza, həm dünyaya, həm də düşmənlərimizə bir daha nümayiş etdirdiniz.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev hərbi paradın tribunasından dünyaya bəyan etdi ki, ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir və ordumuz düşmənin bütün strateji hədəflərini məhv etməyə qadirdir. Azərbaycan heç vaxt işğalla barışmayacaq və tezliklə öz ərazi bütövlüyünü bərpa edəcək.

Ali Baş Komandanımız sizin döyüş və mənəvi-psixoloji hazırlığınıza, yüksək vətənpərvərliyinizə, dövlətə sonsuz sədaqətinizə, ordumuzun gücünə, xalqımızın birliyinə, həmrəyliyinə, dövlətimizin iqtisadi qüdrətinə arxalanaraq belə dedi. Möhtərəm Prezidentimiz bir də qətiyyətlə vurğuladı ki, müharibə hələ bitməyib. “Müharibənin birinci mərhələsi başa çatıb. İkinci mərhələ başlamalı olsa, ordumuz düşməni darmadağın etməyə qadirdir.”

Vətən əsgərləri, siz də yaxşı bilirsiniz ki, möhtəşəm hərbi paraddan sonra düşmən təşviş içindədir. İşğal etdiyi əraziləri qeyd-şərtsiz tərk etmək, qoşunlarını geri çəkmək, işğala, təcavüzə son qoymaq əvəzinə, yenə də hiyləgər, məkrli niyyətindən əl çəkmir. Atəşkəs rejimini intensiv olaraq pozur, təxribatlara əl atır, dinc əhalini atəşə tutur, ölkəmizin daxilində baş verən hər hansı xoşagəlməz hadisələri fərəh hissi ilə izləyir.

Gəncədə baş verən hadisələrin sizi də narahat etdiyini, bu olaylardan üzüldüyünüzü, bilirik, Vətən oğulları! Bu gün Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə, yurd yerlərinə böyük qayıdış üçün zəmin yaratmağa hazırlaşdığımız bir vaxtda bu cür təxribatlar minlərlə şəhidimizin qanı hesabına qazandığımız müstəqilliyimizə, dövlətçiliyimizə tuşlanan güllələr deyilmi?! Bu kimi təxribatlara əl qoyanlar, bu oyunlara qoşulanlar, onları qızışdıranlar, bir sözlə, düşmən dəyirmanına su tökən ünsürlər birdəfəlik bilməlidirlər ki, heç kim, heç bir qüvvə Azərbaycanı müstəqillik yolundan döndərə bilməz! Müstəqilliyimiz əbədidir, daimidir, sarsılmazdır! Dövlət müstəqilliyimizin Azərbaycan Ordusu kimi etibarlı təminatçısı, sizin kimi qəhrəman müdafiəçiləri var!

Sən güclüsən, sən dözümlüsən, sən qorxmazsan, sən iradəlisən, Azərbaycan əsgəri! Sən fitnə-fəsada, yalana, böhtana, riyakarlığa qarşı barışmazsan. Sən insanları xoş vədlərlə yolundan sapdırmaq istəyənlərin şirin dillərinə uymayansan. Sən Vətənin hər qarışını göz bəbəyi kimi qoruyan, döyüş növbəsində ayıq-sayıq dayanan, valideynlərini nümunəvi xidməti ilə hər an sevindirməyə çalışan igidsən. Sən yaxşı bilirsən ki, Azərbaycan bu torpaqda yaşayan bütün millətlərin, eləcə də dünya azərbaycanlılarının qibləgahıdır. Bu qibləgahın sədaqətli qoruyucusu sənsən, Vətən əsgəri! Azərbaycan səninlə fəxr edir. İnanırıq ki, bundan sonra da Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcək, Azərbaycan Prezidentinin, Müdafiə Nazirliyi rəhbərliyinin, xalqımızın etimadını şərəfli xidmətinlə doğruldacaqsan.

Qalib Azərbaycan əsgərinin Qarabağdan gətirəcəyi qələbə müjdəsini intizarla gözləyirik. Duruşun vüqarlı, yerişin mətin, yürüşün uğurlu olsun!

Xalqımızın mübariz övladları! Ordumuzun qəhrəman döyüşçüləri!

Bu müraciəti Vətənimizin, xalqımızın, eləcə də yolunuzu gözləyən valideynlərinizin, doğmalarınızın, əzizlərinizin müraciəti kimi səmimi qəbul edəcəyinizə inanırıq. Əminik ki, işğaldan azad olunmuş torpaqlarda qaldırılan Azərbaycan bayrağını siz Azadlıq meydanına gətirəcək və hərbi paradda nümayiş etdirəcəksiniz.

# Müdafiə naziri: "Avropa İttifaqı və NATO-nun ölkəmizin ərazi bütövlüyü və suverenliyinə verdiyi dəstək Ali Baş Komandanın dünyada artan nüfuzunun göstəricisidir"

*İyulun 14-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*



Müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə, xidmət rəisləri, eləcə də birlik komandirləri ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlər də cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Ali Baş Komandanın ölkənin iqtisadi inkişafı və ordu quruculuğu sahəsində əldə olunan nailiyyətlər barədə səsləndirdiyi fikirləri bir daha diqqətə çatdıran Müdafiə naziri vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

Ali Baş Komandanın Brüssel şəhərinə səfərini qeyd edən Müdafiə naziri Avropa İttifaqı və NATO-da keçirilən rəsmi görüşlərdə, xüsusilə də Şimali Atlantika Alyansının Zirvə toplantısının kommunikesində ölkəmizin ərazi bütövlüyü, suverenliyi, o cümlədən sərhədlərinin toxunulmazlığına hörmət və dəstəyin ifadə olunmasını dövlət rəhbərinin dünyada artan nüfuzunun göstəricisi olduğunu bildirib.

Ölkə daxilindəki sabitliyin, sosial-iqtisadi inkişafın və ordu quruculuğu məsələlərinin daim dövlət başçısının nəzarətində olduğunu müşavirə iştirakçılarının diqqətinə çatdıran general-polkovnik Zakir Həsənov Gəncə şəhərində törədilən təxribat nəzərə alınmaqla hərbi hissələrdə mühafizənin gücləndirilməsinin, gündəlik xidməti fəaliyyətin yüksək səviyyədə təşkilinin, xüsusilə də ön xətt bölmələrində sayıqlığın daha da artırılmasının vacibliyini qeyd edib.

Müdafiə naziri cəbhədəki mövcud vəziyyəti təhlil edərək döyüş və mənəvi-psixoloji hazırlığın, nizam-intizamın daha da artırılması, hərbi təyinatlı obyektlərin mühafizəsinin gücləndirilməsi, şəxsi heyətin qayğısına və sağlamlığına xüsusi diqqət yetirilməsi, eləcə də düşmən tərəfinin mümkün təxribatlarının qarşısının dərhal alınması məqsədilə müvafiq tədbirlərin görülməsi barədə cavabdeh şəxslərə konkret göstərişlər verib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Türkiyədə 15 iyul hadisələrinin növbəti ildönümü ilə əlaqədar Bakıda anım mərasimi təşkil edilib

2016-cı il iyulun 15-də Türkiyədə baş vermiş dövlət çevrilişinə cəhdin ikinci ildönümü ilə əlaqədar qardaş ölkənin Azərbaycandakı səfirliyində anım tədbiri təşkil edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov tədbirdə iştirak edib.

Əvvəlcə şəhidlərin ruhuna dualar oxunub və TRT kanalının 15 iyul hadisələrinə dair hazırladığı filmin nümayişi olub.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral anım mərasimində çıxış edərək deyib ki, iki il əvvəl iyulun 15-də türk milləti kiminsə onun əvəzinə qərar verməsini qəbul etmədiyini bütün dünyaya bəyan etdi. O vurğulayıb ki, 15 iyul günü milli dastanımızdır. Heç kim türk millətini öz yolundan döndərə bilməz. Hər kəs bilsin ki, bu millət hər zaman dövlətinə, vətəninə sahib çıxacaq.

Səfir vurğulayıb ki, həmin gün plan quranlar İslam dinindən sui-istifadə etdilər. Azərbaycanda da İslam dinini bəhanə edərək terror törətməyə çalışan xainlər var. Hər kəs bilməlidir ki, Azərbaycan və Türkiyə bu ünsürləri həmişə əzib yox edəcək gücdədir. Dövlətə və millətə xəyanət edən FETÖ yox ediləcək və həmin gün uzaqda deyil.

Prezidentin köməkçisi Əli Həsənov çıxışında bildirib ki, Türkiyədə 2016-cı il iyulun 15-də baş vermiş hadisələrdə xalqın öz iradəsini ortaya qoyması qürurvericidir. Bu, qəhrəmanlıq salnaməsidir. İki il əvvəl iyulun 15-də Türkiyədə baş verən hadisələr Azərbaycanda da çox həyəcanla izlənildi. Biz Türkiyə hökumətinə dəstəyimizi göstərdik. "Bir millət, iki dövlət" kəlamı həmin günlərin sınağından şərəflə çıxdı. Biz sarsılmaz Türkiyə-Azərbaycan dostluğunu nümayiş etdirdik.




Bir neçə gün əvvəl Gəncədə baş vermiş hadisələrə də toxunan Prezidentin köməkçisi bildirib ki, Gəncə hadisələri dövlətçiliyə əl qaldırmaq istəyən xainlər tərəfindən törədilib. Dinc insanlar arasında olan iki polis zabiti qətlə yetirildi. O zabitlər ölkəmizin tarixinə adlarını qızıl hərflərlə həkk etdilər. Türkiyədəki hadisə ilə Gəncədəki bu hadisə oxşardır.

Əli Həsənov xatırladıb ki, 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında Azərbaycan xalqının iradəsini ifadə edən Prezident Heydər Əliyevi devirmək üçün Türkiyədəki 15 iyul hadisələrinə təxminən oxşar hadisələr baş verib. O zaman da Azərbaycan Ordusunun, Daxili Qoşunlarının, polisin tərkibində yuva salmış, öz doğru yolundan sapdırılmış vətəndaşlar dövlətə və dövlətçiliyə silah yönəltdilər. Bəs, niyə qalib gələ bilmədilər? Çünki Heydər Əliyev o qüvvələrin qarşısına xalqın iradəsi ilə çıxdı. Heydər Əliyev çağırış etdi ki, Azərbaycan dövlətini dəstəkləyən vətəndaşlar meydanlara çıxsınlar. Yüz minlərlə vətəndaş öz sinəsini sipər edərək azğınlaşmış silahlı quldur dəstələrinin qarşısına çıxıb onları tərksilah etdi. Bir sözlə, tarixdə millətin iradəsinə qalib gələn qüvvə yoxdur və bundan sonra da olmayacaq. Xüsusən də bu millətin iradəsi onun dəstəklədiyi liderin simasında ifadə olunursa.

Əli Həsənov Türkiyədəki hadisələrin 20 Yanvar hadisələri ilə oxşarlığına da diqqət çəkərək deyib: "Sadəcə, Türkiyədə bu hadisəni törədənlər Türkiyə ilə bağlılığı olanlar idi. Bakıda isə əhalini qanına qəltan edənlər erməni, erməni xisləti yad əsgərlər idi. Hər ikisi milli iradəyə qalib gəlmək istəyirdi. Millətin üzərinə getmək, tanklar, hərbi təyyarələr qaldırmaq olar, amma milli iradəyə qalib gəlmək olmaz".

Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan və Türkiyə qardaş dövlətlərdir. Hər iki ölkə bir-birinə dəstək verir. Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu!

# Azərbaycan Ordusunun kadr işləri üzrə heyətinin təlim-metodiki toplantısı keçirilib



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Müdafiə Nazirliyinin birlik, birləşmə, hərbi hissə, idarə və müəssisələrinin kadrlar üzrə rəisləri ilə ötən altı ayın yekunlarına həsr olunmuş təlim-metodiki toplantı keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Dövlət himni səsləndirilib.

Toplantıda çıxış edən Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda islahatların davam etdirildiyini və kadr orqanlarının Azərbaycan Ordusunun mühüm xidmət sahələrindən biri olduğunu söyləyərək Müdafiə naziri tərəfindən bu istiqamətə ciddi diqqət yetirildiyini xüsusi vurğulayıb.

Şəxsi Heyət Baş İdarəsi Kadrlar İdarəsinin rəisi general-mayor Elçin Xəlilov toplantıda çıxış edərək 2018-ci ilin birinci yarısında hərbi kadrların idarə edilməsi sahəsi üzrə görülən işlər və qarşıda duran əsas tapşırıqları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

# "Prezidentin ilk 100 günü" adlı tədbir keçirildi

*İyulun 16-da Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı tərəfindən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin növbəti yeddi il üçün Vətənə, xalqa və dövlətə sədaqət andı içməsindən keçən 100 gün ilə bağlı "Prezidentin ilk 100 günü" adlı tədbir keçirildi.*



Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin andiçmə mərasiminə həsr olunan videoçarx nümayiş etdirildi.

Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı çıxış edərək bildirdi ki, bu günlərdə dövlətimizin başçısı İlham Əliyevin 11 aprel prezident seçkilərində inamlı qələbəsinin 100 günü tamam olur. "Fəxrlə deyə bilərik ki, ötən 100 gün ərzində dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə çox böyük nailiyyətlər əldə olunub. Ümumilikdə cənab Prezident İlham Əliyevin hakimiyyətdə olduğu 15 ilə nəzər salsaq, respublikamızın bütün sahələrdə xüsusilə də dövlət idarəçiliyində əldə etdiyi uğurlar, sosial-iqtisadi nailiyyətlər göz qabağındadır. Öz gündəlik həyatında bu dinamik inkişafı hiss edən Azərbaycan vətəndaşlarının mövcud siyasi kursa inamı və etimadı günü-gündən möhkəmlənir. Xalqımız yeganə güvənci və sabahının təminatı kimi baxdığı bu siyasi kursu birmənalı dəstəkləyir və alternativsiz seçim ünvanı kimi qəbul edir. Məhz bu inam, gələcəyə əminlik hissi Heydər Əliyev siyasi kursunun layiqli namizədi cənab İlham Əliyevin növbəti seçkilərdə də möhtəşəm qələbə qazanacağına heç bir şübhə yeri qoymurdu. Qədirbilən xalqımız yenə öz düzgün seçimini edərək builki seçkilərdə də cənab İlham Əliyevi dəstəkləməklə Azərbaycan Respublikasının rifahı üçün növbəti böyük müvəffəqiyyətlərin təməlini qoydu. Sevindirici haldır ki, Prezidentin fəaliyyətinin 100 günü ulu öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə hakimiyyətə gəlişinin 49-cu ildönümü ilə bir vaxta təsadüf edir."



Milli Məclisin deputatı vurğuladı ki, dahi rəhbər Heydər Əliyev bacarığı, işgüzarlığı və uzaqgörənliyi sayəsində dünya siyasi tarixində hər zaman özünəməxsus yeri ilə fərqlənib. Bütün dövrlərdə gücünü, dərin zəkasını xalqının yolunda sərf edən Ulu Öndər daxili və xarici təzyiqlərə, çətinliklərə baxmayaraq, müstəqil Azərbaycan dövlətini yaratdı. Bütün varlığı ilə Vətəni Azərbaycana, xalqına bağlı olan Heydər Əliyev müdrik dövlət xadimi kimi uzun illər ərzində qiymətli irs yaratdı. Müstəqil Azərbaycan dövləti bu zəngin irsdən faydalanır, sürətlə inkişaf edir, mövqelərini qətiyyətlə gücləndirir.

Tədbirdə ulu öndər Heydər Əliyevin fəaliyyəti haqqında videoçarx nümayiş etdirildi.



Nəsimi rayon İcra Hakimiyyətinin başçısı, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Asif Əsgərov böyük tarixi şəxsiyyət Heydər Əliyevin nəsillərə nümunə olan həyat və fəaliyyətindən, onun rəhbərliyi ilə əldə olunmuş uğur və nailiyyətlərdən danışaraq dedi ki, ölkəmizin və xalqımızın taleyi, respublikamızın həyatının bütün sahələrində əldə edilmiş nailiyyətlər dahi şəxsiyyət Heydər Əliyevin adı, onun müdrik dövlətçilik siyasəti ilə bağlıdır. "Azərbaycan xalqı İlham Əliyevi Prezident seçməklə öncə Heydər Əliyevin siyasi kursuna səs verdi. Dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin müəllifi olduğu bu siyasi kurs, o cümlədən sosial-iqtisadi inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilir. Haqlı olaraq Azərbaycan tarixinin Heydər Əliyev dövrü adlandırılan bu zaman kəsiyi ərzində Ulu Öndərimizin gördüyü böyük işlərin, həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyasının məntiqi nəticəsidir ki, bu gün xalqımız müstəqil, demokratik və hüquqi bir dövlətdə yaşamaq imkanı əldə edib, xoşbəxt gələcəyə qovuşmaq üçün bütün təminatlara, ən başlıcası isə siyasi və iqtisadi müstəqilliyə nail olub. Ölkəmizin başçısı respublikamızın yeni dövr üçün iqtisadi siyasət prioritetlərini daim uğurla tətbiq edir. Çevik və işlək mexanizmlər üzərində mütərəqqi islahatları təmin etməklə böyük ictimai rəğbət qazanan ölkə rəhbəri hər bir azərbaycanlının layiqli Prezidenti olduğunu sübuta yetirir.



Sonra Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunan videoçarx göstərildi.

Tədbirdə çıxış edən Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev bildirdi ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu möhkəm bünövrəyə malik müstəqil Azərbaycan dövləti bu gün Ulu Öndərin layiqli davamçısı olan Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin apardığı genişmiqyaslı siyasət nəticəsində yüksək inkişaf dövrünü yaşayır. "Reallaşdırılan məqsədyönlü islahatlar ölkəmizi müasir inkişaf səviyyəsinə çatdırmaqla yanaşı, həm də gələcək üçün etibarlı zəmin yaradır. Bu gün Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir. Ordumuz daim yeni texnika və silah-sursatla təchiz edilir. İstər maddi-texniki təminat, istərsə də hərbçilərimizdə döyüş qabiliyyəti ən yüksək səviyyədədir."

Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında keçirilən təntənəli hərbi paradın əhəmiyyətindən danışan idarə rəisi dedi ki, keçirilən hərbi parad bu inkişafı təsdiq etməklə, xalqımızın öz ordusu ilə haqlı olaraq qürur duymasının və ona inamının real əsaslara dayanmasının təsdiqinə çevrildi. "Hərbi parad ordumuzun gücünü bir daha təsdiqlədi. Bu parad xalqımızın Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə qüdrətli ordumuzun torpaqlarımızı tezliklə düşməndən azad edəcəyinə inamını daha da artırdı. Ordumuzun nəyə qadir olduğunu görən düşmən hazırda sarsılmış durumdadır. Azərbaycan Ordusunun şəxsi heyəti torpaqlarımızı işğaldan azad etmək üçün hər an Ali Baş Komandanın əmrini gözləyir."

Sonra hərbi parada həsr olunan videoçarx nümayiş etdirildi.

Təhsil nazirinin müavini, YAP Nəsimi rayon təşkilatı İdarə Heyətinin üzvü Məhəbbət Vəliyeva bildirdi ki, Azərbaycanda dinamik iqtisadi inkişafın sürətləndirilməsinə, cəmiyyət həyatının bütün sahələrində mütərəqqi islahatların aparılmasına böyük önəm verən Prezident cənab İlham Əliyev elm və təhsilin problemlərini də diqqət mərkəzində saxlayaraq Ulu Öndərin bu sahədə müəyyənləşdirdiyi prioritetlərin də varisliyini təmin etdi. Qeyd etdi ki, Azərbaycanda təhsil sahəsində qazanılan mühüm uğurlar dövlətimizin başçısının adı ilə bağlıdır. "Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə diqqətlə yanaşması, dövlət büdcəsinin vəsaitlərinin ildən-ilə artması ölkəmizdə məqsədyönlü təhsil siyasətinin aparıldığının sübutudur. Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə hər zaman böyük diqqət göstərilir və praktiki tədbirlər görülür. Hər ötən dövr üçün təhsil sisteminin maddi-texniki bazası güclənir, eyni zamanda təhsilin keyfiyyəti artır."







Sonra TANAP-ın açılışına həsr olunan videoçarx göstərildi.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, YAP Nəsimi rayon təşkilatı İdarə Heyətinin üzvü, professor Mustafa Babanlı Azərbaycanın uğurlu neft strategiyasından danışdı. Bildirdi ki, ulu öndər Heydər Əliyevin uğurlu neft strategiyası müstəqil Azərbaycanın inkişafının təməlini qoydu. Ümummilli Lider xalqımız üçün çox işlər görüb. Ulu Öndərin müəllifi olduğu neft strategiyası bu gün müstəqil dövlət kimi Azərbaycanın öz milli sərvətinin sahibi olmasının təsdiqidir. Onun uğurlu neft strategiyası Azərbaycanı yeni inkişaf mərhələsinə yüksəltdi.

Daha sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin Hərbi Orkestrinin solisti Cəlal Kərimov Prezident, Ali Baş Komandan İlham Əliyevin fəaliyyətinin ilk 100 gününə həsr edilmiş sözləri C.Naxçıvanski adına Hərbi Liseyin müəllimi Mətanət İmanquliyevaya, musiqisi Elşən Nicata aid olan "Apar zəfərə, Ali Baş Komandan!" mahnısını ifa etdi.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsinə yola düşdülər

*Gənclərin sağlam böyüməsinə, onların hərbi vətənpərvərlik tərbiyəsinin möhkəmləndirilməsinə, idmana marağının artırılmasına həmişə həssaslıqla yanaşılır. Müdafiə Nazirliyi ilə Səbail rayon İcra Hakimiyyətinin birgə layihəsi əsasında Sahil bağında "Gənc Heydərçilər"in yay düşərgəsinə yola salınma mərasimi keçirildi.*






Mərasimdə Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri, Səbail rayon İcra Hakimiyyətinin rəhbərliyi, yeniyetmələr, valideynlər, ictimaiyyət və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Müdafiə Nazirliyinin hərbi orkestri Azərbaycan Respublikasının Dövlət himnini ifa etdi.

Polkovnik-leytenant Əfqan Əliyev tədbiri açaraq bildirdi ki, 5-ci ildir ön xətdə xidmət edən hərbi qulluqçuların övladları, döyüşlərdə, eləcə də aprel döyüşlərində şəhid olan hərbçilərin uşaqları, rayonun məktəblərində təhsildə və idmanda fərqlənən, xüsusi istedadlı şagirdlərdən ibarət qrup respublikanın şimal bölgəsində yerləşən "N" hərbi hissəsində təşkil olunan hərbi vətənpərvərlik təmayüllü "Gənc Heydərçilər"in yay düşərgəsinə yola salınırlar. "Düşərgənin hərbi vətənpərvərlik təmayüllü olması nəzərə alınaraq uşaqlar üçün xüsusi geyim və forma, lazımi idman ləvazimatları alınmış, hərbi hissədə bütün hazırlıq işləri görülmüşdür. Düşərgədə yeniyetmələr gündə 4 dəfə yüksək kalorili yeməklə, təzə meyvə və tərəvəz, süd məhsulları ilə təmin olunacaqlar. İstirahət dövründə onlar üçün bir neçə dəfə təbiət qoynunda nahar təşkil olunacaq. Uşaqların təlim-tərbiyə işləri ilə rayonun orta məktəblərində çalışan idman və gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən müəllimlər, həmçinin hərbi hissənin zabit, çavuş və əsgərlərindən ibarət qrup məşğul olacaq.

Düşərgə haqqında ətraflı məlumat verən zabit onu da qeyd etdi ki, burada istirahət edən yeniyetmələrin rayonun görməli yerlərinə, mədəniyyət abidələrinə ekskursiyalar təşkil olunacaq. Bu məktəblilərin respublikamızın regionları ilə yaxından tanış olmalarına böyük kömək olacaqdır.

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev bildirdi ki, bu layihə artıq ənənəvi xarakter alıb. "Bu, yeniyetmələrin vətənpərvərlik ruhunun yüksəldilməsində, hərbi xidmətə hazırlığında əhəmiyyətli olacaq. Şübhəsiz




ki, yay istirahət düşərgəsi uşaqların peşə seçiminə də təsir göstərəcəkdir. "Gənc Heydərçilər" 150 nəfərlik qrupla yola düşür. Bu, dövlətimizin Azərbaycan gəncliyinə, Azərbaycan uşaqlarına yaratdığı şəraitdir, dövlətin gənclər siyasətinin tərkib hissəsidir. Bütün bunlar ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən yeniyetmə və gənclərimizin sağlam böyüməsi, gənc nəslin Vətənə məhəbbət, Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunmasına yönəldilmiş siyasətin davamıdır. Siz rayonda hər cür şəraitlə təmin olunacaqsınız. Orada sizin istirahətinizlə bərabər, hərb sənətiylə, hərbi xidmətlə, hərbi hissənin döyüş texnikası və silahları ilə tanış olacaqsınız. İbtidai hərbi hazırlıq səviyyəsində biliklərə yiyələnəcəksiniz. Müdafiə Nazirliyinin rəhbərliyi inanır ki, bu düşərgədəki təəssüratlarınız bir çoxlarınızı gələcəkdə hərb peşəsini seçmənizə vəsilə olacaq. Ümumiyyətlə, yay düşərgəsinin hər birinizin hərbi vətənpərvərlik tərbiyəsində müstəsna rolu olacaqdır. Bu gün Müdafiə Nazirliyinin hər bir hərbçisinin ən böyük arzusudur ki, Azərbaycan gəncləri xoşbəxt böyüsün, müasir elmlərə dərindən yiyələnsin və xüsusən də Azərbaycan xalqının milli maraqları çərçivəsində tərbiyə olunsunlar. Burada müstəqil düşüncəsi olan gənclər də var. Bilirsiniz ki, dövlətimiz iqtisadi, siyasi və hərbi cəhətdən inkişaf etdikcə onu istəməyən xarici qüvvələr müdaxilə etməyə çalışır. Burada bir sıra amillər göstərilir. Eyni zamanda dinin rolu da danılmazdır. Son prosesləri siz də bilirsiniz. Arzumuz ondan ibarətdir ki, siz ancaq və ancaq Azərbaycanın milli əxlaqi dəyərləri əsasında formalaşasınız. Xalqımız, dövlətimiz üçün dəyərli vətəndaşlar olasınız. Müdafiə Nazirliyinin Səbail rayon İcra Hakimiyyəti ilə birgə həyata keçirdiyi bu layihənin əsas qayəsi, mahiyyəti də məhz bundan ibarətdir. Mən sizlərə yaxşı yol, uğurlu istirahət arzulayıram".

İdarə rəisi qeyd etdi ki, hərbçilərlə yaxından təmasda olmaq, əsgərlərin gündəlik həyat və fəaliyyəti, hərbi hissənin döyüş texnikası və silahları ilə tanışlıq yeniyetmələrin gələcəkdə hərbi xidmətə daha yaxşı hazırlaşmasına, hərbi peşəsinə olan marağının artmasına şərait yaradacaq, onlarda gələcəyin görkəmli hərbi sərkərdələri olmaq hisslərini oyadacaq.

- "Gənc Heydərçilər". Görün sizin nə gözəl adınız var, - valideynlər adından danışan şəhid Aqşin Abdullayevin anası Dursun Cavadova sözə başladı. - Bir baxıb, düşünün, sizə nə gözəl ad verilib. Ulu Öndərimizin adı. "Gənc Heydərçilər", yolunuz açıq olsun, uğurlu olsun. Ulu Öndərin adına layiq övladlar kimi böyüyün. Şəhid atalarınız kimi Vətəni sevin, qoruyun. Vətən hər şeydən əzizdir, müqəddəsdir. Bu gün sizlərə daim diqqət və qayğı göstərən cənab Prezidentimiz İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, Müdafiə Nazirliyinin və Səbail rayon İcra Hakimiyyətinin rəhbərliyinə öz dərin minnətdarlığımı bildirirəm.

Şəki rayonu Heydər Əliyev adına 1 nömrəli tam orta məktəbin 8-ci sinfində təhsil alan nəvəsi Amil Abdullayevi düşərgəyə yola salan şəhid anası dövlətimizin onlara diqqət və qayğısından danışaraq vurğuladı ki, şəhidlər unudulanda ölür. "Mən bu gün bir daha hiss etdim ki, oğlum ölməyib, yaşayır. Onu yaşadan dövlətimizin ailəsinə diqqətidi, qayğısıdı. Şəhid övladlarına isti münasibətdi. Yolunuz bir daha açıq olsun, mənim balalarım".

Elnarə Qarayeva övladının sabahımızın əsgəri olması ilə qürurlandı. Məlahət Mahmudova oğlunu hərbi formada görərkən ürəyinin dağa döndüyünü bildirdi. Qarabağ əlili Elxan Aslanov övladının onun döyüş xatirələrini dinləməkdən doymadığını, bu düşərgənin yeniyetmələrin hərbi peşəsinə marağını artıracağına inandığını bildirdi. Elmar Dəmirov övladını hərbi formada görərkən xəyalında əsgər atası olacağı günlərin xəyalını qurduğunu, Elza Pərzadova övladının musiqi duyumundan, 23 nisan uşaq festivalında Türkiyədə ölkəmizi təmsil etməyindən fəxrlə söz açdı. Nəzakət Qədimova övladının Vətən, torpaq sevgisindən danışarkən gözləri gülürdü.

Şagirdlərdən Ayxan Əliyev, Teymur Qarayev, Ruslan Mahmudov, Kənan Aslanov, Sərdar Dəmirov, Toğrul Qədimli, İnayət Pərzadlı, Əlixan Məmmədli, Məcid Həkimli, Əli Əkbər Kərimov, Elton Abdullayev, Əli Cabbarov, Zaur və Raul Əsgərovlar, Kənan Şahbalayev, İbrahim Mirzəyev, Yunis Quliyev və başqaları hərbi formanın onlara yaşatdığı hisslərdən, Vətənə sevgilərindən, gələcəkdə hərb peşəsini seçmək arzularından danışdılar.

Yola düşməzdən əvvəl "Gənc Heydərçilər" Fəxri xiyabanda ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət etdilər. Abidə önünə əklil və tər gül dəstələri qoydular.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
fotolar
Coşqun CƏFƏROVUNDUR**

# Müdafiə Nazirliyi tərəfindən ictimaiyyətlə əlaqələr sahəsində 40-dək tədbir keçirilib

*İyunda Müdafiə Nazirliyi tərəfindən dövlət, yerli və xarici qeyri-hökumət təşkilatları, icra hakimiyyəti strukturları, təhsil müəssisələri, ictimai qurumlar ilə birgə bir sıra tədbir və layihələr həyata keçirilib. Eləcə də müxtəlif televiziya kanallarının və informasiya agentliklərinin nümayəndələrinin cəbhəboyu zonaya səfərləri təşkil olunub.*

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildiriblər ki, ay ərzində nazirliyin təşkilatçılığı ilə Kəlbəcər, Xocavənd, Beyləqan, Qusar, Füzuli, Şəmkir, Gədəbəy, Goranboy, Qazax, Tovuz, Bərdə, Tərtər, Göyçay, Bakının Nəsimi, Suraxanı rayonlarının, o cümlədən Gəncə şəhər İcra hakimiyyətləri ilə birgə cəbhə bölgələri də daxil olmaqla, müxtəlif hərbi hissələrdə, həmçinin xüsusi təyinatlı hərbi təhsil müəssisələrində, Hezi Aslanov adına Mərkəzi, Gəncə Qarnizonu Zabitlər evlərində, Hərb Tarixi Muzeyində, Respublika Veteranlar Təşkilatında hərbi vətənpərvərlik mövzusunda 40-dək tədbir keçirilib.

Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun yaradılmasının 100 illiyi, Milli Qurtuluş Günü münasibətilə keçirilən müxtəlif tədbirlərdə, eləcə də Milli qəhrəmanlarımızın, şəhidlərimizin əziz xatirələrinə həsr olunan mərasimlərdə şəxsi heyət, şəhid ailələrinin üzvləri, müharibə veteranları, Milli Məclisin deputatları, ictimaiyyətin nümayəndələri, tələbələr, məktəblilər və digərləri yaxından iştirak ediblər.

Hesabat dövründə Müdafiə Nazirliyi ilə Birləşmiş Həmkarlar İttifaqının, Gənclər və İdman Nazirliyinin, Yeni Azərbaycan Partiyası Nəsimi və Suraxanı rayon təşkilatlarının, Prezident yanında Bilik Fondunun nümayəndə heyətləri, eləcə də bir sıra QHT-lərin təmsilçiləri hərbi hissələrdə şəxsi heyətlə görüşlər keçirərək hərbi qulluqçuların vəziyyəti, xidməti və sosial-məişət şəraiti, göstərilən tibbi yardım, qidalanma rejimi, onun keyfiyyəti və digər məsələlərlə yaxından tanış olublar.

Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci tədris ilinə hazırlıq planına əsasən, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyi tərəfindən beynəlxalq humanitar hüquq üzrə seminar keçirilib. Müdafiə Nazirliyi ilə Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi tərəfindən "Hərbi vətənpərvərlik: Silahlı Qüvvələrimiz və milli-mənəvi dəyərlərimiz" mövzusunda konfrans təşkil edilib.

Kütləvi informasiya vasitələrində yayımlanması məqsədilə iyunda Müdafiə Nazirliyi tərəfindən 141 rəsmi məlumat, 741 foto, 30 videomaterial hazırlanıb və media nümayəndələrinin sualları cavablandırılıb.

Cəbhəboyu zonada yerləşən hərbi hissələrdə çəkilişlərin aparılması üçün Azərbaycan Televiziyasına, Xəzər, Azad Azərbaycan, CBC, ARB telekanallarına icazə məktubları verilib.

Hesabat dövründə televiziya və informasiya agentliklərinin nümayəndələri Müdafiə Nazirliyi tərəfindən təşkil edilən 20 tədbirin işıqlandırılması üçün dəvət olunublar.

*Sıra hazırlığı*

# Vətəni qorumaq şərəfdir

*İnkişaf göstəricilərinə görə dünyanın aparıcı ölkələrinin orduları ilə rəqabət aparmaq gücünə malik olan Azərbaycan Ordusunda şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı, nizam-intizamı, maddi texniki təchizatı qələbəyə təminat verəcək qədər yüksək səviyyədədir. Bu gün Azərbaycan regionda qarşıya qoyulan tapşırığı müvəffəqiyyətlə yerinə yetirməyə qadir olan orduya malik ən güclü ölkələrdən biridir. Azərbaycanda gedən ordu quruculuğu tədbirləri bir daha təsdiqləyir ki, Ermənistanla müharibə başlayacağı təqdirdə, ölkəmizin qələbəsini şərtləndirən kifayət qədər mühüm amillər var.*



Tarixi qələbəmizi təmin edəcək mühüm amillərdən biri olan şəxsi heyətin döyüş hazırlığına "N" hərbi hissəsində də xüsusi diqqət yetirildiyinin şahidiyik. Şəxsi heyət günün nizam qaydasına uyğun olaraq sıra hazırlığına cəlb olunub. Taqım komandiri leytenant Ramiz Hüseynovun nəzarəti altında şəxsi heyət meydanda sıra hazırlığını təkmilləşdirir. Dərs prosesindən sonra zabit və əsgərlərlə söhbət etmək imkanı qazanırıq.

Zabit Ramiz Hüseynov bildirdi ki, şəxsi heyətin mənəvi-psixoloji durumunun və döyüş qabiliyyətinin yüksək olması Müdafiə Nazirliyi rəhbərliyinin qarşıya qoyduğu tələblər sırasındadır: "Uzun illərdir müharibə şəraitində yaşayırıq və torpaqlarımız işğal altındadır. Torpaqlarımızın işğaldan azad edilməsi missiyası biz hərbçilərin üzərinə düşür. Üzərimizə düşən missiyanın şərəflə yerinə yetirilməsi üçün döyüş qabiliyyətinin təkmilləşdirilməsi, hərbi təcrübəmizin artırılması, yüksək hərbi nizam-intizam hərbi hissənin qarşısına qoyulan ilkin tələblərdən biridir. Hərbi hissəmizdə günün nizam qaydasına uyğun olaraq şəxsi heyətimizin sıra vərdişlərinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. Şəxsi heyətə məşğələlər, dərslər keçərkən həm təhsil illərində qazandığımız bilik və səriştəni, həm də hərbi xidmətdə əldə etdiyimiz təcrübəni aşılamağa səy göstəririk. Keçdiyimiz təlimməşqlərin, mütəmadi dərslərin nəticəsidir ki, şəxsi heyətimizin döyüş qabiliyyəti artır, orduda mənəvi-psixoloji vəziyyət, vətənpərvərlik ruhu, nizam-intizam yüksək səviyyədədir".

"Ordu sıralarına gəldiyimiz gündən hərbi sirləri təcrübəli zabit və manqa komandirlərimizdən mənimsəməyə çalışırıq", - deyə əsgər Aqşin Şahmalıyev söhbətə başladı. - Müntəzəm olaraq biz əsgərlərə təcrübəli komandirlərimiz tərəfindən dərs və məşğələlər keçirilir. Üzərimizə düşən vəzifə isə hərbi bilikləri dərindən mənimsəmək, tapşırıqların öhdəsindən layiqincə gəlməkdir. Xidməti vəzifələrinə məsuliyyətlə yanaşan zabitlərimizin sayəsində gündən-günə hərbi bilik və vərdişlərimizi artırırıq. 20 faiz torpaqları işğal altında olan bir torpağın oğullarının, Azərbaycan əsgərinin başqa cür davranmağa haqqı çatmır.

Əsgərlər Onur Abbaszadə, Anar Nəzərli də bildirdilər ki, torpaqlarımızın işğaldan azad edilməsi Azərbaycan Ordusunun əsgəri kimi onların Vətən qarşısında olan əsgəri borcudur, ən əsası isə vətəndaşlıq borcudur: "Müqəddəs borcumuz Vətənə, onun çiçəklənməsinə xidmət etmək, hər qarış torpağımıza sinəmizi sipər edib onu qorumaqdır. Ərazilərimizin 20 faizinin yağı tapdağı altında olduğu bir zamanda Vətən bizdən daha böyük hünərlər gözləyir və biz əsgərlər qanımızla, canımla onu qorumağa hazırıq. Vətəni qorumaq və inkişaf etdirmək hər birimizin şərəf işi, vətəndaşlıq borcudur."

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı



## Dövlət sərhədində Ermənistanın kəşfiyyat-diversiya qrupunun təxribatının qarşısı alınıb

İyulun 15-i səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində düşmənin kəşfiyyat-diversiya qrupu qoşunların təmas xəttini keçməyə cəhd göstərib.

Bölmələrimizin sayıqlığı nəticəsində düşmənin təxribat cəhdinin qarşısı alınıb və itkilər verərək geri çəkilməyə məcbur edilən qrupun bir üzvü əsir götürülüb.

Özünün bildirdiyinə görə, o, 1984-cü il təvəllüdlü Karen Kazaryandır.

Hadisə zamanı Azərbaycan Ordusunun bölmələri itki verməyib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*17 iyul 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 103 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində, Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Kəngərli, Sarıcalı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz və Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.



# "Dəniz Kuboku-2018" müsabiqəsinin təşkilat komitəsinin görüşü keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iyulun 13-də Hərbi Dəniz Qüvvələrinin (HDQ) qərargahında Beynəlxalq Ordu Oyunları çərçivəsində Bakıda keçiriləcək "Dəniz Kuboku-2018" müsabiqəsinə hazırlıq üzrə təşkilat komitəsinin növbəti görüşü keçirilib.

Hərbi dənizçilər arasında yarışların yüksək səviyyədə keçirilməsi məqsədilə Müdafiə nazirinin əmrinə əsasən yaradılmış təşkilat komitəsinin üzvləri gəmilərin və dəniz infrastrukturunun hazırlığı ilə bağlı məsələləri müzakirə edib və aidiyyəti üzrə tapşırıqlar verilib.

Cari ilin iyulun 31-dən avqustun 10-dək Xəzər dənizinin ölkəmizə aid ərazi sularında keçiriləcək "Dəniz Kuboku-2018" müsabiqəsində Azərbaycan, Rusiya, Qazaxıstan və İran hərbi dənizçilərinin iştirakı planlaşdırılır.

AZƏRBAYCAN ORDUSU

**Ümummilli lider Heydər ƏLİYEV:**

*Azərbaycan xalqının igid oğlu, adı dillər əzbəri olan partizan-kəşfiyyatçı, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin Bakıda ucaldılmış abidəsi Vətənimizi qorumaq üçün canından keçmiş qəhrəmanlara ümumxalq hörmət və məhəbbətinin parlaq ifadəsidir.*

*Mehdi Hüseynzadə - 100*

# “Son nəfəsimədək vuruşacam, ölsəm də qəhrəmantək öləcəm”



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, Mehdi Hüseynzadənin 100 illik yubileyi ölkəmizdə geniş qeyd olunacaq.*

Prezidentin sərəncamında bildirilir: "Mehdi Hüseynzadə 1941-1945-ci illər müharibəsində faşizmə qarşı mübarizədə apardığı çoxsaylı uğurlu kəşfiyyat əməliyyatları və nümayiş etdirdiyi misilsiz hərbi şücaətləri ilə böyük şöhrət qazanmış və Azərbaycan xalqının zəngin tarixi hünər salnaməsinə şanlı səhifələr yazmışdır. Yüksək əxlaqi keyfiyyətlərə malik cəsur kəşfiyyatçının rəşadət dolu şərəfli həyat yolu bu gün Vətənimizin sərhədlərini layiqincə qoruyan və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan mətin Azərbaycan əsgəri üçün parlaq qəhrəmanlıq nümunəsidir".

... İkinci Dünya müharibəsinin həlledici məqamlarından hesab olunan Qərbi Avropanın antifaşist müqavimət hərəkatında "Mixaylo" kimi tanınan qeyri-adi döyüş bacarığı nümayiş etdirən cəsur kəşfiyyatçı Mehdi Hüseynzadənin adı doğma Vətəni Azərbaycandan çox-çox uzaqlardakı ölkələri dolaşdı. O, Avstriyanın, Fransanın, İtaliyanın, Yuqoslaviyanın göylərində sönməyən əbədi parlaq ulduza döndü. Mehdinin doğulduğu Bakı şəhəri uğrunda döyüşdüyü bu ölkələrdə faşist Adolf Hitlerin göz dikdiyi neft Bakısı kimi tanınırdı. Qəhrəman Mehdi Vətənin hüdudlarından kənarda çex, slovak, polyak, yuqoslav, fransız, italyan partizan yoldaşlarına doğma Azərbaycandan, canı qədər sevdiyi Bakıdan və mavi Xəzərdən danışar, müharibə qurtardıqdan sonra birlikdə Bakıya getməyi arzulayardı, Adriatik dənizinin Xəzər dənizinə çox bənzədiyini deyərdi...

22 dekabr 1918-ci ildə Bakıda dünyaya göz açmışdı Mehdi Hənifə oğlu Hüseynzadə. Yeri gəlmişkən qeyd edək ki, onun vaxtilə yaşadığı ev "Nizami" metro stansiyasının yaxınlığındadı. Evin önünə qəhrəmanın xatirə lövhəsi vurulub. Kiçik yaşlarında atasını itirən Mehdi əvvəl anasının, sonra bibisinin himayəsində böyümüşdü. 1925-ci ildə 77 saylı yeddi illik məktəbə (hazırda 19 saylı məktəb) daxil olur. İlk müəllimləri görkəmli yazıçı Süleyman Sani Axundovdan və respublikanın xalq artisti, tanınmış bəstəkar Səid Rüstəmov olub. Gənc yaşlarından rəsmə, musiqiyə böyük həvəs göstərən Mehdi yeddi illik məktəbi bitirdikdən sonra təhsilini Bakı rəssamlıq texnikumunda davam etdirir. Zəhmətkeşliyi, elmə, təhsilə möhkəm bağlılığı ilə yaxınlarının, müəllim və tələbələrin dərin hörmətini qazanır. O, axşamlar evdə idarələrdən, kitabxanalardan, nəşriyyatlardan aldığı sifarişləri yerinə yetirər, plakatlar çəkər, şüarlar yazardı. Mehdi Hüseynzadənin gənclik dostu, sənətşünaslıq doktoru Mürsəl Nəcəfov xatirələrində yazır ki, Mehdinin müəllimlərə və tələbə yoldaşlarına münasibəti çox səmimi idi. “O, nümunəvi tələbə, yaxşı yoldaş və fəal ictimaiyyətçi idi. Hələ tələbə ikən bir sıra əsərlərin, o cümlədən şair Abdulla Faruqun "Döyüş yollarında" kitabının bədii tərtibatını vermişdi."

Poeziya vurğunu olan Mehdi Azərbaycan klassik ədəbiyyatını daima mütaliə edər, Ömər Xəyyamın, Molla Pənah Vaqifin, Hüseyn Cavidin şeirlərini əzbərləyərdi.

Beləcə, günlər keçir... Gənc yaşlarından əməyə alışan Mehdi ailənin qayğısını çəkməklə bərabər, təhsilini Moskvada davam etdirməyi qarşısına məqsəd qoymuşdu.

1936-cı ilin yayında Rəssamlıq Akademiyasında oxumaq üçün Moskvaya gedir, lakin istəyinə çata bilmir. Növbəti ildə Leninqrad Xarici Dillər İnstitutunun fransız dili fakültəsinə daxil olur. Tələbəlik həyatı başlayır. Burada da müəllimlərinin, tələbə yoldaşlarının sevimlisinə çevrilir. Dördüncü kursda oxuyan Mehdi təhsilini Bakıda davam etdirmək üçün Pedaqoji İnstitutun dil və ədəbiyyat fakültəsinin ikinci kursuna keçirilir. Onu Vətənə çəkən Azərbaycan poeziyasına və Azərbaycan ədəbiyyatına olan böyük məhəbbəti idi. İstər Xarici Dillər İnstitutunda, istər ədəbiyyat fakültəsində oxuyanda da rəssam kimi də sənətini davam etdirirdi.

1941-ci il iyunun 22-si... İnsanlığa, bəşəriyyətə qənim kəsilən Hitler faşizminin Sovetlər İttifaqına xaincəsinə hücumunun başladığı gün. "Ana Vətən çağırır!", "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarları Mehdinin də qəlbini titrədir. Minlərlə həmyaşıdı kimi o da könüllü olaraq cəbhəyə yazılır. Üçüncü kurs tələbəsi, böyük arzularla, ümidlərlə yaşayan Mehdi indi yalnız faşist qaniçənlərini məhv etmək barədə düşünür, çağırış vərəqəsinin gəlməsini səbirsizliklə gözləyirdi. Nəhayət, o zaman gəlib yetişdi. 1941-ci ilin avqustunda "Mən gərək ailəmizin, atamızın adını yüksəklərdə tutum" deyən Mehdi doğmaları, dostları ilə görüşüb cəbhəyə yola düşür, ölüm-dirim savaşına atılır. Cəbhə yolları başlayırdı. Sülhpərvər bir insan olan Mehdinin əsgər şineli geyməyə, fırçasını süngüyə çevirməyə məcbur edən faşist işğalçılarının qəfil, xaincəsinə basqını idi. Gənc əsgər əvvəlcə Bakıda, Qusarda hərbi təlimlər keçir. Sonra Tbilisidəki hərbi-piyada məktəbinə göndərilir. Oradan doğmalarına göndərdiyi məktubunda yazırdı ki, mən oxuduğumuz məktəbi əla qiymətlərlə qurtardım, rütbəm qvardiya leytenantıdır. Digər bir məktubunda yazırdı ki, məndən nigaran qalmayın. Mən sizin adınızı ucaldacam, mənim haqqımda eşidərsiniz.

...1942-ci ilin yayında qvardiya leytenantı Mehdi Hənifə oğlu Hüseynzadə Stalinqrad cəbhəsinə göndərilir. O, Stalinqrad yaxınlığındakı Kalaç rayonunda vuruşurdu. Gənc zabit ən ağır döyüşlərin getdiyi cəbhədə vuruşduğunu məktublarının birində qeyd edirdi: "Bu məktubu düşmən gülləleri altında yazıram, burada şiddətli vuruşmalar gedir, faşistlərin törətdiyi cinayətlərin həddi yoxdur. Biz hücuma hazırlaşırıq. Söz verirəm ki, son nəfəsədək vuruşacam, ölsəm də qəhrəman kimi öləcəm."



Həmin döyüşlərdə ağır yaralanan Mehdi əsir alınır. O, ilk günlərdən həbs düşərgəsindən qaçmaq və mübarizəni davam etdirmək əzmi ilə yaşayır. İki dəfə Ukrayna və Polşa ərazisində həbs düşərgəsindən qaçsa da, partizanlarla görüşməyə cəhd etsə də, uğursuz alınır və sonda yenə də faşistlərin əlinə keçir. Almanlar Ukraynanın işğal etdikləri ərazilərindən birində fəhlə batalyonu yaradır. Burada gələcək komandiri, partizan dostu Cavad Həkimli ilə tanış olur və hər ikisi alman dilini bildiyindən yük qatarı ilə Berlinə, Dolerits rayonunun dördüncü tərcüməçilər birləşməsinə göndərilir. Burada üç ay təhsil aldıqdan sonra onlar 162-ci Türküstan alman diviziyasına qəbul edilir. İkinci Dünya müharibəsinin tarixindən bəllidir ki, Sovet İttifaqı ilə müharibənin gedişində alman komandanlığı hərbi əsirlərdən ibarət milli birləşmələr - legionlar yaradırdı. Onlara təxribatlar törətmək və silahlı mübarizə aparmaq tapşırılmışdı. Bunlardan biri də 162-ci Türküstan diviziyasının 314-cü alayı Azərbaycan legionu ilə. Mehdi fransız dilini təmiz bildiyindən burada ondan daha çox istifadə edirdilər.

...Qəhrəman həmyerlimiz hiyləgər düşmənlə mübarizədə yeni, həm də fərqli döyüş bacarığı nümayiş etdirməli idi. Mehdi Hüseynzadə, Cavad Həkimli və digər hərbi əsirlərlə - Qasım Əmrahov, Sadiq Nadirli, Cabbar Quliyev, Mikayıl Qulubəyov, Əsəd Qurbanov və başqaları ilə birlikdə necə olursa-olsun, partizanlara qoşulmaq, əsirləri düşərgələrdən çıxartmaq üçün yollar axtarırdılar. Onlar Sovet əsirlərindən ibarət gizli təşkilat - rus bölüyü yaradır, düşərgədəki 23 min əsir arasında möhkəm təbliğat aparırlar. Təşkilatın rəhbəri Mehdi "Qürbətzadə Mixaylo" imzası ilə Azərbaycan dilində "Hüququnu itirmiş dostuma" sərlövhəli vərəqələri çap edərək onları qrup rəhbərləri və üzvləri vasitəsilə əsirlər arasında yayırdı. Sonu "Alman faşistlərinə ölüm!" cümləsi ilə bitən bu vərəqələr düşmənin yaxın vaxtlarda darmadağın olunacağından, Sovet qoşunlarının bütün cəbhə boyu uğurlu hücum əməliyyatlarından bəhs edən, əsirlərin intiqamına səsləyən mübariz bir ittihamnamə idi.

1943-cü ilin noyabrı... Mehdi yoldaşları ilə birlikdə İstehkam qurmaq üçün Şimali İtaliyanın Triyest şəhəri yaxınlığındakı Villi Opçina qəsəbəsinə gətirilir. İlk fürsəti əldən verməyən Mehdi Aleksandr adlı sloveniyalının tanış etdiyi bacısı Savva adlı kəşfiyyatçı qızın köməyi ilə (Savva "Uzaq sahillərdə filmindəki Anjelikanın prototipidir) partizanlarla əlaqə yaratmağa nail olur. Olduqca cəld, çevik, qorxmazlıq kimi möhkəm xarakterə malik olan Mehdi Cavad Həkimli ilə birlikdə legiondan qaçaraq İtalyan-Yuqoslav 9-cu partizan korpusuna qoşulur. 9-cu korpusun tərkibində legionlardan qaçmış keçmiş Sovet əsirlərindən formalaşmış yeni bölük təşkil olunur. Bu rota "Ruska-Çeta" adlanırdı. Onun komandiri Cavad Həkimli, kəşfiyyatçısı və siyasi hissə üzrə komandir köməkçisi Mehdi Hüseynzadə təyin olunur. "Mixaylo" ağlı, təmkini və əsl kəşfiyyatçı məharəti ilə bütün gərgin vəziyyətlərdən qalib çıxırdı. Hər bir tapşırığı yerinə yetirməyə gedərkən bilirdi ki, bunu ədalət naminə, azadlıq naminə, haqq işinin qələbəsi naminə edir. Mehdi Hüseynzadə həmişə deyirdi ki, kəşfiyyatçı da minaçı kimi bir dəfə səhv edir. Ona görə də əməliyyata hazırlaşarkən hər şeyi yüz ölçüb bir biçmək lazımdır.

Mixaylonun faşist işğalçılarına qarşı mübarizədə keçən iki ilinin hər günü, hər həftəsi, hər ayı qəhrəmanlıqla doludur. O, çox hallarda alman zabiti formasında fəaliyyət göstərirdi. Onu bəzən rəssam, yoxsul kəndli geyimində, mətbəə fəhləsi paltarında görürdülər. Mixaylo! Bu adı Triyest əhalisi faşist qəzetlərində, xüsusi elanlarda, afişalarda tez-tez görürdü. Ələkeçməz Mixaylonun tutulması və ölümü üçün alman komandanlığı 300 min marka məbləğində mükafat vəd etmişdi. Bu "səxavət" təsadüfi deyildi, çünki, Mixaylonun partlatdığı qatarlar, tankerlər, elektrik stansiyaları, kazarmalar faşistlərə 100 və 1000 qat bahasına başa gəlirdi. Tədqiqatçılar belə hesab edirlər ki, əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin kəşfiyyat fəaliyyəti nəticəsində əksəriyyəti zabit olmaqla 1000-ə qədər faşist öldürülüb.

...Mixaylo komandanlıqdan növbəti tapşırığını alır. Əməliyyatı uğurla həyata keçirir. Lakin geri qayıdarkən düşmənlə üzüzə gəlir. Qeyri-bərabər döyüşdə Mixaylo qəhrəmancasına həlak olur. Cəsur kəşfiyyatçının partizan dostları onu müsəlman adət-ənənəsinə uyğun olaraq keçmiş Yuqoslaviyanın ərazisində yerləşən Çepovani kəndində dəfn edirlər. Onun məzarı üzərində bu sözlər yazılıb: "Azərbaycan xalqının qəhrəman oğlu, əziz dostumuz Mehdi, rahat yat. Sənin azadlıq uğrunda göstərdiyin ölməz qəhrəmanlıq dostlarının qəlbində daim yaşayacaqdır."

Mehdi Hüseynzadənin qəhrəmanlığı haqqında, həlak olması barədə məlumatı ilk dəfə müharibədən sonra doğmalarına çatdıran onun yaxın silahdaşı, partizan dostu Cavad Həkimli olur.

1957-ci il aprelin 11-də Böyük Vətən müharibəsi illərində faşist işğalçılarına qarşı mübarizədə göstərdiyi qəhrəmanlığa görə Mehdi Hüseynzadəyə ölümündən sonra “Sovet İttifaqı Qəhrəmanı” adı verilir.

Xalqımız qəhrəman, alovlu vətənpərvər oğlunun xatirəsini həmişə əziz tutub və adını əbədiləşdirib. Haqqında şeirlər, poemalar, roman və povestlər yazılıb, bədii filmlər çəkilib. "Uzaq sahillərdə", "9-cu korpus", "Təxəllüsü Mixaylo" filmləri Mehdi Hüseynzadənin qəhrəmanlıq dolu həyatından bəhs edir. Xalq şairi Süleyman Rüstəm "El oğluma" şeirini Mehdi Hüseynzadənin əziz xatirəsinə həsr edib.

Gənc, qəlbi arzularla dolub-daşan Mehdi vədini şərəflə yerinə yetirdi. Nəinki doğmalarının, Vətəni Azərbaycanın, elinin, obasının başını da uca edib, adına şan-şöhrət qazandırdı. Göstərdiyi qəhrəmanlıqların sorağı eldən-elə dolaşdı. Vətən oğlu ölümü ilə ölümsüzlüyə qovuşdu. Atalar gözəl deyib: "İgid ölər, adı qalar". Vətəndən çox-çox uzaqlarda əfsanəvi qəhrəmanlıq zirvəsinə ucalan Mehdi Hüseynzadənin xatirəsi əbədi yaşayacaq. Onun məzarı dağ zirvələrində olduğu kimi, adı da ürəklərin zirvələrində əbədiyyət tapacaq.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**



*Ordu və cəmiyyət*

# "Mən orduya sevginin, ehtiramın müəllimiyəm"

*Vətən hər birimizin şan-şöhrəti, qeyrəti, əyilməzliyi, vüqarı, qüruru, varlığı, əbədi səcdəgahıdır. Fərdi sevgidən ilahi sevgiyə yüksəliş Vətən sevgisiylə bağlıdır. Vətəni sevmək torpağı sevməkdir. Vətənə məhəbbət xalqa məhəbbətdir. Vətənini, azadlıq və istiqlaliyyətini sevən bir xalqın ruhunu məhv edəcək qüvvə yoxdur! Vətənpərvərlik döyüşdə vuruşub qəhrəmanlıq göstərməklə bitmir (Sokrat). Hər bir insanın üzərinə düşən vəzifəni ədalətlə, vicdanla yerinə yetirməsi də vətənpərvərlikdir.*

Neftçala rayonunda ezamiyyətdə olarkən Vətən eşqi ilə döyünən ürəyinin sevgisini, döyüntüsünü hiss etdiyim Vaqif Süleymanovla söhbətləşərkən öyrənirəm ki, keçmiş Sovet ordusunun zabiti olub. İstefada olan mayor dedi ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin orduya göstərdiyi qayğı danılmazdır. "Onun ordumuzun formalaşmasına, güclənməsinə göstərdiyi diqqət və qayğı sayəsində bu gün Azərbaycan qüdrətli orduya malikdir. Ordumuz müasir silahlarla və hərbi texnikalarla təmin edilib, yeni hərbi şəhərciklər salınıb. Hərbçilərimizin məişət şəraiti yüksək səviyyədədir. Orduda keçirilən "Açıq qapı" günlərində iştirak edən ictimaiyyət nümayəndələrinin hərbi hissələri çöhrələrində təbəssüm, ürəklərində rahatlıq hissi ilə tərk etdiklərinin canlı şahidiyəm. Valideynlər övladlarını əsgəri xidmətə tam arxayınlıqla yola salırlar. Müstəqil dövlətimizin ordusunda xidmət edən övladlarımızı dünyanın ən xoşbəxt insanları adlandırıram. Onlar doğma Vətənimizin keşiyində dayanıblar".

Vaqif müəllim üç oğul atasıdır. Ata, oğullarının doğma Vətənimizdə müqəddəs borcunu verməsiylə qürurlanır. Oğullarından Faiqin ehtiyatda olan baş leytenant, bu gün də Vətənin keşiyində dayanan Farizin Qarabağ müharibəsi veteranı, Malikin Naxçıvanda müddətli həqiqi hərbi xidməti müddətində ailəyə təşəkkür məktubları göndərilməsi haqqında fəxrlə söz açdı. Nəvələrinin Vətənə, torpağa, bayrağa sevgilərinin sözlərlə izaholunmaz dərəcədə böyüklüyünü baba xoşbəxtliyi ilə anladır. Onların vətənpərvər vətəndaş olmasıyla öyünür.

Həmsöhbətim dedi ki, Vətənin qədrini Vətən ilə ruhən əlaqəsi olanlar bilər. "Vətəni sevmək torpağını, daşını, havasını, suyunu sevməkdir. Vətənə bağlılıq onu qorumaqdır. Vətəni sevmək, ona bağlanmaq hər bir şəxsin vətəndaşlıq borcudur".

Vaqif müəllim Xıllı qəsəbəsindəki şəhid Rafiq Gözəlov adına 1 saylı orta məktəbdə 18 il gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edib. O, ümummilli lider Heydər Əliyevin "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, torpağa, millətə sədaqət, Vətən yolunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir" kəlamını xatırlayaraq bildirir ki, xalqını, millətini sevib özünü Vətəninin bir parçası bilən hər bir kəsin ən başlıca vəzifəsi cəmiyyətimizə, xalqımıza dəyərli vətəndaşlar hazırlamaqdır. "Gənclərin çağırışaqədərki hazırlığı fənni gənclərimizi orduya, Vətənə xidmətə hazırlamaqdan ibarətdir. Onları psixoloji baxımdan hərbi həyata hazırlamaq vacib məsələdir. Ali Baş Komandanın və Müdafiə nazirinin orduya olan diqqət və qayğısı, davamlı olaraq ön cəbhəyə səfərləri, əsgərlərimizlə daha yaxından maraqlanmaları gənclərimizdə vətənpərvərlik hisslərini daha da möhkəmləndirməklə yanaşı, hərbi xidmətə, orduya sevgi və ehtiram hisslərini daha da gücləndirir".

Təqaüddə olan müəllim vətənpərvərlik hissinin formalaşmasında məktəblilərin hərbi hissələrə ekskursiyasının əhəmiyyətli rol oynamasından, hərbi formada keçirilən dərslərin aşıladığı duyğulardan da danışdı. Belə tədbirlərin gənc nəslin vətənpərvərlik ruhunda böyüməsinə müsbət təsir göstərdiyini də vurğulayır. Bu gün ordu sıralarında zabit kimi xidmət edən şagirdlərindən qürurla söz açaraq bildirdi ki, biz bir xalq olaraq ordumuzla qürur duyuruq. "Ən böyük arzum odur ki, Vətən keşiyində duran igid oğullarımız tezliklə xalqımızı Qələbə ilə müjdələsin."

**Leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**

# "Ordum varsa, yurdum var!" adlı kompozisiya təqdim olunub

*"AYTAM" uşaqların mədəni maariflənməsi İctimai Birliyinin təşəbbüsü ilə Azərbaycanda Atatürk Mərkəzində "Ordum varsa, yurdum var!" adlı tədbir keçirilib. Tədbir Milli Ordumuzun və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunub.*





AZƏRTAC xəbər verir ki, tədbirdə İctimai Birliyin sədri Aygün Zamanlı Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin qısa zaman kəsiyində gördüyü işlərdən danışıb.

Bildirilib ki, xalqımızın milli oyanışını və dirçəlişini təcəssüm etdirən, Azərbaycanın milli dövlətçilik ənənələrini daha da zənginləşdirən Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da, tarixdə silinməz iz qoyub. Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərib. Bu respublika mövcud olduğu 23 aylıq qısa müddətdə demokratik dövlət və ordu quruculuğu, iqtisadiyyat, təhsil, mədəniyyət və digər sahələrdə mühüm islahatlar həyata keçirib.

Böyük Vətən müharibəsi veteranı Əli Cümşüdov, Milli Qəhrəman Gültəkin Əsgərovanın anası Rəfiqə Əsgərova, şairlər Fəxrəddin Meydanlı, Zərəngiz Dəmirçi və başqaları çıxış edərək, Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın qədim dövlətçilik tarixinin şanlı səhifələrindən olduğunu diqqətə çatdırıblar. Bu gün Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olan müstəqil respublikamızın əldə etdiyi mühüm uğurlardan danışıblar.

"AYTAM"-ın üzvlərinin ifasında əsgər marşları, hərbi vətənpərvərlik mahnıları səsləndirilib, "Ordum varsa, yurdum var!" adlı ədəbi-bədii kompozisiya təqdim olunub.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə daha bir təhlükəli terrorçu məhv edilib



Türkiyənin təhlükəsizlik qüvvələri qırmızı bülletenlə axtarılan daha bir təhlükəli terrorçunu məhv edib.

Bu barədə Türkiyənin daxili işlər naziri Süleyman Soylu məlumat verib.

Nazir bildirib ki, məhv edilən terrorçu PKK terror təşkilatının Qara dəniz bölgəsi üzrə rəhbəri Mehmet Yakışırdır.

## Pakistan Türkiyədən 30 ədəd ATAK helikopteri alacaq



Pakistan tərəfi Türkiyə hərbi sənayesində istehsal olunan "T-29" ATAK helikopterlərinin əsas alıcısına çevrilir.

Türkiyə ilə Pakistan arasında 30 ədəd helikopterin alqı-satqısına dair müqavilə imzalanıb.

## Yonhap: Rusiyanın iki hərbi təyyarəsi Cənubi Koreyanın hava məkanını dörd dəfə pozub



Rusiyaya məxsus iki hərbi təyyarə Cənubi Koreyanın hava müdafiə zonasına dörd dəfə daxil olub.

Yonhap agentliyi Cənubi Koreya silahlı qüvvələrinin birləşmiş qərargahına istinadla bu barədə məlumat yayıb. Bildirilir ki, təyyarələr ilk olaraq ölkənin şimal-şərqindəki Ulleunqdo adası üzərindəki hava məkanına yerli vaxtla saat 14:08-də (Bakı vaxtı ilə 9:08) daxil olub. Rusiya təyyarələri daha sonra 15:21-də, 16:08-də və 17:36-da Cənubi Koreyanın hava məkanına daxil olublar.

Təyyarələr Cənubi Koreya tərəfinin xəbərdarlığından sonra hava məkanını tərk ediblər.

## Somalidə prezident sarayının yanında partlayış olub



Somalinin paytaxtı Moqadişoda prezident sarayının yanında partlayış olub. Bu barədə "Garowe" internet nəşri məlumat yayıb.

Partlayış binanın qarşısında avtomobildə baş verib. Zərərçəkənlər barədə məlumat verilmir.

## ABŞ və KXDR amerikalı hərbçilərin cəsədlərinin qalıqlarının qaytarılması məsələsini müzakirə ediblər



ABŞ və Koreya Xalq Demokratik Respublikasının (KXDR) yüksək rütbəli hərbçiləri 1950-1953-cü illər Koreya müharibəsində ölmüş amerikalı əsgərlərinin cəsədlərinin qalıqlarının qaytarılması məsələsini müzakirə ediblər.

Görüş iyulun 12-də nəzərdə tutulsa da, Şimali Koreyanın istəyi ilə iyulun 15-də keçirilib. İki Koreya arasındakı demilitarizasiya zonasında yerləşən Panmuncom qəsəbəsində təşkil edilən görüşdə tərəflər qalıqların qaytarılmasına dair razılaşmanın detallarına dair fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, amerikalı hərbçilərin cəsədlərinin tapılması və qaytarılması məsələsi ABŞ və KXDR liderlərinin iyunda Sinqapur görüşündə əldə olunan razılaşmanın əsas məqamlarından biridir. Tərəflər arasında 1998-ci ildən bəri bu məsələ ilə əlaqədar 16 dəfə danışıqlar aparılıb. Sonuncu bu cür görüş 2009-cu ildə təşkil edilib.

**AZƏRTAC-ın materialları əsasında**

*Rusiyada keçirilən dünya çempionatındakı qələbə Fransa millisinə FIFA tərəfindən 38 milyon dollar pul mükafatı qazandırıb. Dünya çempionatının ümumi mükafat fondu 400 milyon dollar təşkil edib. Mundialın gümüş mükafatçısı Xorvatiya millisi 28 milyon, üçüncü yeri tutan belçikalılar 24, İngiltərə yığması isə 22 milyon dollar qazanıb. Həmçinin dünya çempionatının "play-off" mərhələsinin digər iştirakçılarının da qazandığı məbləğ açıqlanıb. Dörddəbir final mərhələsində mübarizəsini dayandıran Rusiya millisi, İsveç, Braziliya və Uruqvay komandaları 16 milyon dollar, səkkizdəbir finalda turniri tərk edən İspaniya, Danimarka, İsveçrə, Kolumbiya, Argentina, Meksika, Portuqaliya və Yaponiya komandaları isə 12 milyon dollar qazanacaqlar. FIFA qrup mərhələsindəki iştirakçıların hərəsinə 8 milyon dollar verəcək.*

# "DÇ 2018": Fransa millisi ikinci dəfə dünya çempionu adını qazandı

İyulun 15-də Rusiyada keçirilən futbol üzrə XXI dünya çempionatının finalında Fransa və Xorvatiya millilәri qarşılaşıblar.

Moskvadakı "Lujniki" stadionunda oynanılan görüşdə fransızlar ikiqat dünya çempionu olmaq, xorvatiyalılar isə kuboku ilk dəfə başları üzərinə qaldırmaq üçün mübarizə aparıblar.

Oyunu argentinalı referi Nestor Pitana idarə edib.

Xatırladaq ki, XXI dünya çempionatında üçüncü yer uğrunda görüşdə Belçika millisi İngiltərə seçməsini 2:0 hesabı ilə məğlub edərək bürünc medallara sahib olub. Çempionatın ən məhsuldar komandası və futbolçusu adları məhz bu iki komandaya məxsusdur. Belə ki, Belçika millisi ən çox qol vuran (16) komanda, ingilislərin hücumçusu Harri Keyn isə ən çox fərqlənən (6 qol) futbolçudur.

Matçın 19-cu dəqiqəsində Fransa millisi hesabı açıb. Antuan Qrizmanın yerinə yetirdiyi cərimə zərbəsindən hava ötürməsindən sonra Rafael Varanın başla qapıya göndərdiyi top Mario Mandzukiçə toxunduqdan sonra qapıya daxil olub - 1:0.

Xorvatiyalıların yerinə yetirdiyi cərimə zərbəsi ilə başlayan hücumda cərimə meydançasına ötürülən topu Domaqoy Vida İvan Perişiçə göndərib. Topu qüvvətli zərbə ilə qapıya göndərən İvan Perişiç matçda hesabı bərabərləşdirib - 1:1.

Argentinalı referi Nestor Pitananın matçın 38-ci dəqiqəsində Xorvatiya yığmasının qapısına təyin etdiyi 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirən Antuan Qrizman




Fransanı yenidən hesabda irəli çıxarıb - 2:1.

Beləliklə, matçın ilk hissəsi Fransa yığmasının 2:1 hesablı üstünlüyü ilə başa çatıb. Fransızlar birinci hissədə rəqib qapısına bir dəqiq zərbə endirmələrinə baxmayaraq, öz aktivlərinə iki qol yazdırmağı bacarıblar.

Matçın 59-cu dəqiqəsində Fransa seçməsi hesab arasındakı fərqi iki topa çatdırıb. Sürətli əks-hücum zamanı Mbappenin ötürməsindən sonra rəqibin cərimə meydançasında topu qəbul edən Antuan Qrizman onu ram edərək Pol Poqbaya ötürüb. İlk zərbəsi müdafiəçi Lovrendən geri qayıdan Pol Poqba ikinci cəhdində topu qapıya göndərməyi bacarıb - 3:1.

Matçın 65-ci dəqiqəsində Kaylian Mbappe Fransa millisinin dördüncü qolunu Xorvatiya yığmasının qapısından keçirib. Luka Hernandesdən ötürmə alan Kaylian Mbappenin qüvvətli zərbəsi qapıçı Daniel Subaşiç üçün alçatmaz olub - 4:1.

Bu qol Kaylian Mbappe üçün xüsusilə əlamətdar olub. Belə ki, o, braziliyalı Peledən sonra final qarşılaşmasında 20 yaşına çatmamış fərqlənən ikinci futbolçu kimi tarixə düşüb.

Lakin Xorvatiya yığmasının bu qola cavabı çox gecikməyib. Oyunun 69-cu dəqiqəsində qapıçı Uqo Lorisə pressinq tətbiq edən Mario Mandzukiç qolkiperin səhvindən istifadə edərək hesab arasındakı fərqi azaldıb - 4:2.

Oyunun qalan dəqiqələrində əlavə qol olmayıb və matç Fransa yığmasının qələbəsi ilə başa çatıb.

Beləliklə, futbol üzrə XXI dünya çempionatının finalında Xorvatiya yığmasına 4:2 hesabı ilə qalib gələn Fransa seçməsi tarixində ikinci dəfə dünya çempionu adını qazanıb.

Fransa yığmasının baş məşqçisi Didye Deşam 1998-ci ildə kapitan kimi qazandığı dünya çempionluğunu bu dəfə baş məşqçi kimi əldə edib.

Xorvatiya yığmasının kapitanı Luka Modriç çempionatın ən yaxşı futbolçusu, Fransa millisinin gənc hücumçusu Kaylian Mbappe isə ən yaxşı gənc futbolçusu elan ediliblər. Ən yaxşı qapıçı adına isə Belçika millisinin qolkiperi Tibo Kurtua layiq görülüb.

Sonra dünya çempionatında ikinci yeri tutan Xorvatiya yığmasının futbolçularına mundialın gümüş medalları təqdim edilib.

Daha sonra XXI dünya çempionu Fransa millisinin üzvlərinə qızıl medallar təqdim olunub.

Nəhayət, çempionatın ən çox gözlənilən anı yetişib. FIFA prezidenti Canni İnfantino XXI dünya çempionu olan Fransa yığmasının kapitanı Uqo Lorisə mundialın kubokunu təqdim edib.

Beləliklə, iyunun 14-də Moskvadakı "Lujniki" stadionunda start götürən XXI dünya çempionatı iyulun 15-də elə həmin arenada da Fransa yığmasının çempionluğu ilə başa çatıb.

Növbəti - XXII dünya çempionatı 2022-ci ildə Qətər Dövlətində keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun hərbçilərinin özbaşınalığı, intizamsızlığı, sərxoş vəziyyətdə əxlaqsız davranışı səbəbi ilə tez-tez cinayət hadisələri baş verir.

Yerevan şəhərində mülki şəxslərlə hərbi qulluqçular arasında baş verən insident nəticəsində daha bir hərbçi ağır yaralanıb.

Axşam saat 23.00 radələrində Yerevandakı kafelərin birində sərxoş vəziyyətdə əxlaqsız hərəkətlərə yol verən hərbçilər yerli sakinlər tərəfindən döyülüb. Nəticədə hərbi qulluqçu Gor Hayrapetyan başından ağır zərbə alaraq yaralanıb.

Hospitala yerləşdirilən əsgərin vəziyyəti barədə məlumat verilmir.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrində müxtəlif səbəblərdən baş verən hadisələr nəticəsində qeyri döyüş itkilərinin sayı durmadan artır.

Xəbərdə bildirilir ki, silahla davranış zamanı təhlükəsizlik qaydalarına əməl etməmək ermәni əsgərə baha başa gəlib. Ehtiyatsız davranma nəticəsində Valam Babayan adlı hərbçi ayağından yaralanıb və hospitala təxliyə olunub.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birinin qərargahında yanğın baş verib.

400 hektar ərazini əhatə edən və hərbi hissənin ərazisinə də keçən yanğın nəticəsində qərargah binasının bir hissəsi yanaraq uçub.

Yanğını söndürməyə cəlb edilənlərdən Artur Qasparyan adlı hərbi qulluqçu yıxılaraq müxtəlif dərəcəli bədən xəsarətləri və yanıqlar alıb.

Hospitala yerləşdirilən hərbçinin vəziyyəti barədə məlumat verilməsə də, yanğın zamanı hərbi obyektə dəyən ziyana görə günahkar şəxslərin aşkar edilməsi və cəzalandırılması məqsədilə cinayət işi açılıb.

* * *

Son günlər işğalçı Ermənistan ordusunda qanunsuzluqlar səbəbindən qeyri- döyüş itkilərinin artması bu ölkədə əsgər ailələrində böyük təşviş səbəb olub.

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən düşmən ordusunun bölmələrindən birində daha bir qanlı insident baş verib.

Xəbərdə deyilir ki, döyüş mövqeyində baş vermiş münaqişə zəminində Vahan Badalyan adlı hərbi qulluqçu, əsgər yoldaşı Armen Stepanyanı odlu silahdan atəş açmaqla ağır yaralayıb. Yaralanan A.Stepanyan hərbi hospitala yerləşdirilib.

Bütün faktlarla bağlı cinayət işi açılıb, araşdırmalar aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

## *Hərbi texnikalar, silahlar*

# S-300 zenit-raket kompleksi



Hazırda müxtəlif modifikasiyalı orta məsafəli S-300 zenit-raket kompleksi Hərbi Hava Qüvvələrinin zenit-raket qoşunlarının əsası sayılır. Zenit-raket kompleksi qoşun qruplaşmalarının və strateji ordu obyektlərinin, stasionar idarəetmə məntəqələrinin, qərargahların, hərbi bazaların, inzibati mərkəzlərin və sənaye obyektlərinin ballistik və qanadlı raketlərdən, pilotsuz uçuş aparatlarından, aviasiya zərbələrindən qorunması üçün təyin edilib. Həm də bu kompleks ilk çoxkanallı zenit-raket kompleksi sayılır ki, onunla 100-ə qədər hədəfi müşahidə və eyni vaxtda 12 hədəfi məhv etmək olar. Onun əsas istehsalçısı A.A.Raspletin adına "Almaz-Antey" müəssisəsidir. Hazırda mövcud olan zenit-raket sistemlərindən qorunmaq üçün ilk raket əleyhinə müdafiə sistemidir.

S-300 PMU kompleksi 5 kilometrlik məsafədən 90 kilometrlik məsafəyə qədər uzaqlıqda yerləşən hədəfləri məhv etməyə qadirdir. Hədəfi məhvetmə sürəti saniyədə 1150 metrdir. Eyni vaxtda iki raket tuşlamaqla altı hədəfə atəş aça bilər. Atəş tempi saniyədə 3-5 atışdır.

Raketlər orijinal döyüş təchizatına malikdir. Aerodinamik hədəflərin məhvetmə uzaqlığı 200 kilometrə qədərdir. Minimal məhvetmə uzaqlığı isə 3 kilometrdir. Hədəfləri maksimal



məhvetmə sürəti saniyədə 2800 metr təşkil edir. Eyni vaxtda vurulan hədəflərin sayı 36-ya qədərdir. Sistemin döyüş sursatları beş dəqiqə ərzində hərəkətə gətirilir. Raket uçuşa şaquli vəziyyətdə başlayır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 464
Nüsxə 3525